## Əməkdaşlıq fəaliyyətləri

- 2026-cı ilin 8 iyun tarixində Agentliyin nümayəndələri ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyinin Səhiyyənin Tənzimlənməsi Baş İdarəsinin Baytarlıq Departamentinin rəhbərliyi arasında ikitərəfli görüş keçirilmişdir. Görüş zamanı iki ölkə arasında qida məhsullarının idxal-ixrac əməliyyatlarının genişləndirilməsi, İsrailin idxal tələblərinin öyrənilməsi, eləcə də hər iki ölkənin qida təhlükəsizliyinə nəzarət sistemlərinin ekvivalentliyinin qarşılıqlı tanınması məsələləri müzakirə olunmuşdur. Tərəflər, həmçinin heyvan mənşəli məhsulların İsrailə ixrac perspektivləri və bu istiqamətdə mövcud imkanlar barədə ətraflı fikir mübadiləsi aparmışlar.
- 2026-cı il 18 mart tarixində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyəti və İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Ronen Krausz arasında görüş keçirilmişdir. Görüş zamanı AQTİ-nin fəaliyyət istiqamətləri, laboratoriya şəbəkəsinin fəaliyyəti və son dövrlərdə qida təhlükəsizliyinin təmin edilməsi sahəsində görülmüş işlər və tətbiq edilən müasir nəzarət mexanizmləri barədə ətraflı məlumat verilmiş, ölkəmizdə formalaşdırılmış riskə əsaslanan dövlət nəzarəti sisteminin qida zəncirinin bütün mərhələlərində daha effektiv monitorinqə imkan yaratdığı səfirin diqqətinə çatdırılmışdır.
- 2026-cı il 2 fevral tarixində Agentliyin və İsrail Dövlətinin Səhiyyə Nazirliyinin nümayəndələri arasında onlayn görüş keçirilmişdir. Görüşdə Görüşdə bioloji aktiv qida məhsulları və qida əlavələri üzrə icazə, qeydiyyat və tənzimləmə mexanizmləri, bu məhsullar üçün Azad Satış Sertifikatının verilməsi prosedurları və səlahiyyətli qurumlar barədə İsrailin təcrübəsi müzakirə olunub.
- 2025-ci il 26 dekabr tarixində Agentliyin nümayəndə heyəti ilə İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Ronen Krausz arasında görüş keçirilmişdir. Görüş zamanı Agentliyin fəaliyyət istiqamətləri, son dövrlərdə qida təhlükəsizliyinin təmin edilməsi sahəsində görülmüş işlər və tətbiq olunan müasir nəzarət mexanizmləri barədə ətraflı məlumat verilmişdir.
- 2025-ci ilin 20 noyabr tarixində İsrailin Qüds şəhərində keçirilən “Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya”nın dördüncü iclasında Agentliyin Aparat rəhbəri iştirak etmiş və səfər çərçivəsində İsrail Dövlətinin Səhiyyə Nazirliyinin Beynəlxalq Əlaqələr üzrə direktoru xanım Revital Maimeran ilə görüş keçirilmişdir. Görüş zamanı Agentliyin fəaliyyəti barədə ətraflı məlumat verilmiş, Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərən Qida və Kosmetika Sahəsindəki Tənzimləmə Strukturu ilə AQTA arasında qida təhlükəsizliyi sahəsində gələcək əməkdaşlıq imkanları geniş şəkildə müzakirə edilmişdir
- 2025-ci il 4 noyabr tarixində Agentlik və İsrail Dövlətinin Kənd Təsərrüfatı və Ərzaq Nazirliyinin Bitki Mühafizəsi və Təftiş Xidmətlərinin nümayəndələri arasında virtual görüş keçirilmiş, bitki sağlamlığı sahəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və Azərbaycandan İsrailə ixrac edilən məhsullar üçün mövcud olan zərərverici risklərinin təhlili prosedurları və icazələrin alınması müzakirə edilmişdir.

- 2025-ci il 29 iyul tarixində AQTA-nın nümayəndələri ilə İsrail Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyinin Baytarlıq Xidmətinin nümayəndələri arasında virtual formatda görüş keçirilmiş və Azərbaycan tərəfindən İsrailə yumurta ixracı, İsrail tərəfindən Azərbaycana südlük qaramal idxalı və ekvivalentliyin tanınması məsələləri müzakirə olunmuşdur.
- "Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Saziş layihəsinə müqabil tərəfin aidiyyəti dövlət qurumundan münasibət bildirilməsi üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə sorğu ünvanlanmışdır.
- 2023-cü il 18 aprel tarixində Agentliyin sədr müavini ilə İsrail Dövlətinin Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyinin nümayəndəsi arasında görüş keçirilmişdir. Görüş zamanı Agentliyin fəaliyyət istiqamətləri, qarşıya qoyulan hədəflər, əhalinin sağlam və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə müqabil tərəfə ətraflı məlumat verilmişdir.
- 2023-cü il oktyabr ayında AQTA, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), Azərbaycan Respublikasının İsrail Dövlətində Səfirliyinin nümayəndəsi, İsrail Dövlətinin aidiyyəti qurumlarının nümayəndələrinin iştirakı ilə Azərbaycandan İsrailə pomidor ixracı ilə bağlı onlayn görüş təşkil edilmiş, pomidorun ixrac tələblərinə dair ətraflı müzakirələr aparılmışdır.
- 2022-ci il avqust ayında AQTA və İsrail Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizəsi və Təftiş Xidmətlərinin direktoru Şlomit Zioninin rəhbərlik etdiyi nümayəndə heyətləri arasında onlayn görüş keçirilib. Gömrük keçid məntəqələrində bitki və bitkiçilik məhsulları, eləcə də pestisid və aqrokimyəvi maddələrin idxal-ixrac prosesinə nəzarət tədbirləri barədə fikir mübadiləsi aparılıb. Hər iki ölkədə qarşılıqlı təcrübə səfərlərinin təşkili, əməkdaşlıq üzrə normativ sənədlərin imzalanması məsələləri müzakirə olunub.
- 2022-ci il sentyabr ayında AQTA və İsrail Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizəsi və Təftiş Xidmətlərinin nümayəndə heyətləri arasında görüş keçirilib. Görüşdə İsrail nümayəndə heyətinə Agentliyin fəaliyyət istiqamətləri, fitosanitar karantin tələbləri, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, fitosanitar karantin nəzarətində olan məhsulların ölkəmizə idxalı prosedurları, mövcud elektron sistem haqqında geniş məlumat verilib. Qida sahəsində idxal potensialı olan məhsulların ixrac imkanlarının nəzərdən keçirilməsi və bu sahədə hər iki ölkənin mövcud idxal tələblərinin öyrənilməsi istiqamətində fikir mübadiləsi aparılıb.